**Kiçik sahibkarlığa dövlət köməyi haqqında**

**Azərbaycan Respublikasının Qanunu**

***Maddə 1. Qanunun təyinatı***

Bu Qanun hər kəsin Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən olunmuş azad sahibkarlıq fəaliyyəti və qanunla qadağan edilməyən digər iqtisadi fəaliyyət növü ilə məşğul olmaq hüququnun həyata keçirilməsi məqsədi daşıyır və Azərbaycan Respublikasında kiçik sahibkarlığa dövlət köməyinin iqtisadi, hüquqi, təşkilati əsaslarını, forma və üsullarını müəyyən edir.

***Maddə 2. Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanunvericilik***

1. Kiçik sahibkarlığa dövlət köməyi haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanunundan, bu Qanundan və digər normativ-hüquqi aktlardan ibarətdir.

2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanunda müəyyən edilmiş müddəalardan fərqli müddəalar müəyyən edildikdə həmin beynəlxalq müqavilələrin müddəaları tətbiq olunur.

***Maddə 3. Kiçik sahibkarlıq subyektləri***

*1. Kiçik sahibkarlıq subyektləri işçilərinin orta siyahı sayı (mövsümi cəlb edilən işçilər nəzərə alınmadan) və illik dövriyyələrinin həcmi əsas götürülməklə müəyyənləşdirilir.*

*2. İqtisadi fəaliyyət növləri üzrə bu meyarların hədlərinin müəyyən edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.*

***Maddə 4. Kiçik sahibkarlıq subyektlərinin qeydiyyatı***

1. Hüquqi şəxs yaratmadan kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin *vergi orqanlarında vergi ödəyicisi kimi uçota alınması Azərbaycan Respublikasının vergi qanunvericiliyi ilə tənzimlənir*.

2. Hüquqi şəxs yaratmaqla kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin dövlət qeydiyyatını qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

***Maddə 5. Kiçik sahibkarlıq subyektlərinin hesabatı***

Kiçik sahibkarlıq subyektləri statistik və mühasibat hesabatlarını müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən olunan və vergitutma məsələlərinin həlli üçün məlumatı özündə əks etdirən sadələşdirilmiş qaydada və formada aparırlar.

***Maddə 6. Kiçik sahibkarlığa dövlət köməyinin istiqamətləri***

Kiçik sahibkarlıq subyektlərinə dövlət köməyi aşağıdakı istiqamətlərdə həyata keçirilir:

- kiçik sahibkarlığın dəstəklənməsinin və inkişafının infrastrukturunun formalaşdırılması;
- kiçik sahibkarlığa kömək proqramlarının hazırlanması və həmin proqramların həyata keçirilməsinin təşkili;
- kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə kömək göstərilməsi;
- kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf-müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsi;
- kiçik sahibkarlıq subyektləri üçün dövlət qeydiyyatının (uçotunun), statistik və mühasibat hesabatlarının təqdim edilməsinin, onların ~~fəaliyyətinin lisenziyalaşdırılmasının və~~ istehsal etdikləri məhsulun (işin, xidmətin) sertifikatlaşdırılmasının sadələşdirilmiş sisteminin tətbiqi;
- kiçik sahibkarlığın inkişafı üzrə tədqiqatların təşkili.

***Maddə 7. Kiçik sahibkarlığa kömək proqramları***

1. Kiçik sahibkarlığa kömək tədbirləri sahibkarlığın dövlət, regional və sahə kömək proqramları çərçivəsində həyata keçirilir.

Kiçik sahibkarlığa kömək proqramları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanı tərəfindən hazırlanır.

2. Yerli özünüidarəetmə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq idarə, müəssisə və təşkilatlar, həmkarlar ittifaqları müstəqil qaydada kiçik sahibkarlığa kömək proqramları hazırlayıb həyata keçirə bilərlər və ayrı-ayrı layihələrin və tədbirlərin kiçik sahibkarlığa kömək üzrə dövlət və yerli özünüidarəetmə orqanlarının proqramına daxil edilməsi barədə müvafiq icra hakimiyyəti orqanlarına müraciət edə bilərlər.

3. Kiçik sahibkarlığa kömək proqramlarının maliyyələşdirilməsi dövlət büdcəsi, yerli büdcələr və bu qanunda nəzərdə tutulmuş digər mənbələr hesabına həyata keçirilir. Kiçik sahibkarlığa kömək proqramlarının maliyyələşdirilməsi üçün nəzərdə tutulan büdcə xərcləri ayrıca sətirdə göstərilir.

Yerli büdcələr hesabına maliyyələşdirmənin həcmi yerli özünüidarəetmə orqanları tərəfindən müəyyənləşdirilir.

4. Kiçik sahibkarlığa kömək aşağıdakı tədbirləri əhatə edir:

- sahibkarlığın normativ hüquqi bazasının təkmilləşdirilməsi;
- mərkəzi, regional və yerli səviyyələrdə kiçik sahibkarlığın inkişafına dəstək verən infrastrukturun yaradılması;
- əhalinin sosial cəhətdən daha az təmin olunan təbəqələrinin, o cümlədən işsizlərin, qaçqınların və məcburi köçkünlərin, əlillərin, şəhid ailələrinin, təqaüdçülərin, qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi;
- kiçik sahibkarlığın həvəsləndirmə sisteminin formalaşdırılması və ona maliyyə köməyinin göstərilməsi;
- kiçik sahibkarlıq strukturlarının inkişafı üzrə tədqiqatların aparılması;
- istehsal yönümlü kiçik sahibkarlığa dövlət himayədarlığının təmin edilməsi.

***Maddə 8. Kiçik sahibkarlığa dövlət maliyyə yardımı***

1. Kiçik sahibkarlığa dövlət maliyyə yardımını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

2. Kiçik sahibkarlığa dövlət maliyyə yardımı məqsədli proqramlar çərçivəsində güzəştli kreditlər, subsidiyalar, kompensasiyalar, qrantlar, kreditlərə təminatlar verilməsi, lizinqin təşkili, sahibkarlara xidmət göstərən maliyyə-kredit qurumlarına stimullaşdırıcı tədbirlərin tətbiqi formasında həyata keçirilir.

3. Kiçik sahibkarlığa dövlət maliyyə yardımının formaları və mexanizmi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

4. Kiçik sahibkarlıq subyektlərinin maliyyə qaynaqlarından istifadə imkanlarını genişləndirmək məqsədilə kredit təminatı fondu yaradılır.

***~~Maddə 9. Kiçik sahibkarlıq subyektlərindən vergi tutulması~~***

~~1. Rüblük dövriyyəsi (istehsalın, işin, xidmətin həcmi) aylıq gəlirin vergi tutulmayan minimum məbləğinin 1000 mislindcən çox olmayan kiçik sahibkarlıq subyektlərinə vahid vergi tətbiq olunur. Vahid vergi dərəcəsi dövriyyənin 5 faizi səviyyəsində müəyyən edilir. Digər kiçik sahibkarlıq subyektlərindən vergi tutulması Azərbaycan Respublikasının vergi qanunvericiliyinə müvafiq surətdə həyata keçirilir. Kiçik sahibkarlıq subyektlərinə məqsədli proqramlar çərçivəsində xüsusi vergi güzəştləri tətbiq edilə bilər.~~

***Maddə 10. Kiçik sahibkarlığa kömək infrastrukturları***

1. Kiçik sahibkarlığın inkişafı üçün kiçik sahibkarlıq subyektlərinə informasiya, hüquqi və iqtisadi məsləhət xidmətləri göstərmək və sahibkarların dövlət təşkilatları və xarici tərəfdaşlarla səmərəli əməkdaşlıq əlaqələri yaratmalarına yardımçı olmaq məqsədilə istənilən mülkiyyət forması əsasında hər hansı təşkilati-hüquqi formada müəssisə və təşkilatlar yaradıla bilər.

2. Yeni fəaliyyətə başlayan kiçik sahibkarlıq subyektlərinə fəaliyyətinin təşkilinə və maliyyə müstəqilliyi əldə etmələrinə kömək məqsədilə mülkiyyət formasından asılı olmayaraq onları müəyyən şərtlər əsasında və müəyyən müddətə, lazımi avadanlıqla təchiz edilmiş ofis və (ıvə ya) iş yerləri ilə təmin etmək üçün, habelə kiçik sahibkarlıq subyektlərinə gələcəkdə öz fəaliyyətini inkişaf etdirməyə imkan verə biləcək yeni texnologiyaların və digər yeniliklərin hazırlanmasına şərait yaratmaq məqsədilə istənilən təşkilati-hüquqi formada qurumlar yaradıla bilər.

Bu qurumlar kiçik sahibkarlıq subyektlərinə ümumi məqsədli köməklə yanaşı, maliyyə-kommersiya xidmətləri də göstərə bilərlər.

3. Bu maddədə göstərilən qurumlar qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılır və onlara müvafiq icra hakimiyyəti orqanları tərəfindən yardım göstərilə bilər.

***Maddə 11. Kiçik sahibkarlıq subyektləri üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasların artırılması sahəsində kömək göstərilməsi***

1. Müvafiq icra hakimiyyəti orqanları kiçik sahibkarlıq subyektləri üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisas artırılması üzrə tədrisin inkişafına şərait yaradılması sahəsində tədbirlər həyata keçirilməsini təmin edirlər.

2. Sahibkarlığa maliyyə köməyi qurumları kiçik sahibkarlıq subyektləri üçün kadrların hazırlanması, yenidən hazırlanması və ixtisasların artırılmasına yönəltdikləri xərcləri tam və ya qismən kompensasiya edə bilər.

Bu xərclərin kompensasiyasının şərtləri, qaydası və məbləği kiçik sahibkarlıq subyekti ilə müvafiq maliyyə qurumu arasında bağlanmış müqavilə ilə müəyyən edilir.

***Maddə 12. Kiçik sahibkarlıq subyektlərinə informasiya sahəsində kömək göstərilməsi***

1. Kiçik sahibkarlıq subyektləri tərəfindən iqtisadi, hüquqi, istehsal texnoloji və digər məlumatın əldə olunması və onlar arasında işgüzar məlumat mübadiləsi etmək məqsədilə müvafiq icra hakimiyyəti orqanları informasiya infrastrukturunun yaradılması üzrə tədbirlər hazırlayır və həyata keçirirlər.

2. Dövlət qurumları kiçik sahibkarlıq subyektlərinə qunanvericiliklə müəyyən edilmiş qaydada güzəştli şərtlərlə informasiya xidmətləri göstərə bilər.

3. Sahibkarlığa maliyyə köməyi qurumları kiçik sahibkarlıq subyektlərinin informasiya əldə olunmasına yönəldilmiş xərclərini tam və ya qismən kompensasiya edə bilər.

Bu xərclərin kompensasiyasının şərtləri, qaydası və məbləği kiçik sahibkarlıq subyekti ilə müvafiq maliyyə qurumu arasında bağlanmış müqavilədə müəyyən edilir.

***Maddə 13. Kiçik sahibkarlıq subyektlərinin dövlət ehtiyacları üçün məhsul istehsalında və xidmətlər göstərilməsində iştirakı***

1. Müvafiq icra hakimiyyəti orqanları dövlət ehtiyacları üçün məhsul istehsalı, işlərin görülməsi, xidmətlərin göstərilməsi üzrə sifarişlərin 15 faizdən az olmayan hissəsinin kiçik sahibkarlıq subyektlərinə verilməsi məqsədilə tədbirlər görürlər.

*2. Kiçik sahibkarlıq subyektlərinin dövlət ehtiyacları üçün məhsul istehsalı, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə sifarişlərin yerinə yetirilməsində*

*iştirakı dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirilir.*

***Maddə 14. Kiçik sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinə kömək***

1. Müvafiq icra hakimiyyəti orqanları kiçik sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyətinin inkişafı üçün, habelə beynəlxalq sərgi və yarmarkalarda, xarici iqtisadi proqramların və layihələrin icrasında iştirakını genişləndirmək məqsədi ilə tədbirlər həyata keçirirlər.

2. Sahibkarlığa maliyyə köməyi qurumları kiçik sahibkarlıq subyektlərinin xarici iqtisadi fəaliyyəti zamanı yaranmış xərclərini, o cümlədən nəqliyyat, məlumat alınması, beynəlxalq sərgilərdə (yarmarkalarda) iştirakı üzrə xərclərini tam və ya qismən kompensasiya edə bilər.

Bu xərclərin kompensasiya şərtləri, qaydası və məbləği kiçik sahibkarlıq subyekti ilə müvafiq maliyyə qurumu arasında bağlanmış müqavilədə müəyyən edilir.

***Maddə 15. Kiçik sahibkarlıq subyektlərinin qarşılıqlı maliyyə yardımı təşkilatları***

1. Kiçik sahibkarların qarşılıqlı maliyyə yardımı təşkilatları kiçik sahibkarlıq subyektləri tərəfindən könüllü olaraq onların maliyyə ehtiyaclarını ödəmək məqsədi ilə öz vəsaitləri hesabına qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılır.

2. Kiçik sahibkarlıq subyektlərinin qarşılıqlı maliyyə yardımı təşkilatları yalnız həmin təşkilatların iştirakçılarına maliyyə yardımı göstərirlər.

***Maddə 16. Kiçik sahibkarlıq subyektlərinin birlikləri***

1. Kiçik sahibkarlıq subyektləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz birliklərini yarada bilərlər.

2. Müvafiq icra hakimiyyəti orqanları kiçik sahibkarlıq subyektlərinin birliklərinin təşkilinə və fəaliyyətinə kömək göstərirlər.

3. Kiçik sahibkarlığa dövlət köməyi sistemini təkmilləşdirmək, kiçik sahibkarlıq subyektləri birliklərinin fəaliyyətini əlaqələndirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanları yanında sahibkarlığın inkişafı üzrə şuralar yaradıla bilər. Bu şuranın funksiyaları və səlahiyyətləri müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyən edilir.

***Maddə 17. Qanunun pozulmasına görə məsuliyyət***

Bu Qanunun pozulmasına görə müvafiq icra hakimiyyəti orqanlarının və yerli özünüidarəetmə orqanlarının vəzifəli şəxsləri, habelə kiçik sahibkarlıq subyektləri Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

***~~Maddə 18. Keçid müddəası~~***

~~Kiçik sahibkarlıq subyektləri üçün bu Qanunun 9-cu maddəsinin birinci hissəsində nəzərdə tutulan vahid vergi dərəcəsi Azərbaycan Respublikasının Vergi Məcəlləsi qüvvəyə mindikdən sonra tətbiq edilir.~~

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 4 iyun 1999-cu il***

***№ 673-IQ***

***«Azərbaycan» qəzetində dərc olunmuşdur (11 avqust 1999-cu il, № 181).***

***«Azərbaycan Respublikası Qanunvericilik Toplusunda» dərc edilmişdir (31 avqust 1999-cu il, № 8, maddə 469) .***

***23 noyabr 2001-ci il tarixli, 219-IIQD nömrəli; 6 dekabr 2002-ci il tarixli, 399-IIQD nömrəli; 4 noyabr 2003-cü il tarixli, 508-IIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 429-IIIQD nömrəli qanunlara əsasən əlavələr və dəyişikliklərlə.***